# Respublika Gənclər Kitabxanasında tədbir



**23 ildir ki, Ağdam həsrəti qəlbimizi göynədir. Azərbaycanın vətənpərvər ziyalıları səhər tezdən Şəhidlər Xiyabanına axışaraq vətənimizin bütövlüyü və azadlığı uğrunda canlarını qurban vermiş igid oğul və qızlarımızın xatirəsini yad etdilər, şəhidlərimizin ruhuna dualar oxudular. Sonra Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasında geniş tədbir keçirildi.**

Kitabxananın direktoru Tahir Sadıqov Ağdamın füsunkar gözəlliyindən, tarixi abidələrindən, mehriban insanlarından, igid oğullarından iftixarla söz açdı və şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Xocalını Tanıtma İctimai Birliyinin sədri Şamil Sabiroğlu hərbi jurnalist kimi o ağır illəri xatırladı və fədakar insanların qəhrəmanlığından danışdı. Milli qəhrəman Fred Asif Məhərrəmovun qardaşı, Qarabağ müharibəsi əlili Ədalət Məhərrəmov, polkovnik-leytenant Zahid Qarayev, "General" ləqəbli Əlövsət Qasımov, politoloq Tofiq Əlizadə, yazıçı Nazim Tapdıqoğlu və başqaları işğalçı erməni quldurlarının vəhşiliklərindən söhbət açdılar.

Qeyd edildi ki, 6 mindən çox şəhid vermiş ağdamlılar 23 ildir ki, yurdlarına həsrət qalıblar. Bu uzun illər ərzində vətən həsrətinə dözməyən minlərlə insanlarımız dünyasını dəyişib və bu gün də acı iztirablar, üzüntülər davam edir. Biz inanırıq ki, erməni quldurları tərəfindən işğal olunmuş Qarabağımız ordumuzun gücü ilə tezliklə azad olunacaqdır.

**Rauf İLYASOĞLU,**
**"Respublika".**
**Foto: S.MƏMMƏD.**

Respublika.- 2016.- 26 iyul.- S. 8.